

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 25 (24.162)

*9 fevral 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


# Azərbaycan xalqının sevgisini qazanmış böyük mədəniyyət xadimi

## *Prezident İlham Əliyev Bakıda görkəmli bəstəkar Tofiq Quliyevin abidəsinin açılışında iştirak edib*





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Bakıda görkəmli bəstəkar, Xalq artisti, Dövlət mükafatı laureatı Tofiq Quliyevin abidəsinin açılışında iştirak edib.

Açılış mərasimində çıxış edən **Prezident İlham Əliyev** dedi:

– Sabahınız xeyir olsun. Bu gün biz görkəmli bəstəkar Tofiq Quliyevin abidəsinin açılışına toplaşmışıq. Şəhərimizin mərkəzində ucaldılan bu abidə Azərbaycan xalqının dahi bəstəkar Tofiq Quliyevin xatirəsinə olan hörmətinin əlamətidir. Həqiqətən, Tofiq Quliyevin əsərləri Azərbaycan mədəniyyət aləmində bir inqilab etmişdir. Tofiq Quliyev həm görkəmli bəstəkar, həm Azərbaycanda caz sənətinin banisi də adlandırıla bilər. Eyni zamanda böyük mədəniyyət xadimi Tofiq Quliyev Azərbaycan xalqının sevgisini qazanmışdır.

Onun əsərləri, doğrudan da, bizim böyük sərvətimizdir. Bu əsərlər ölməz əsərlərdir, bu gün də səslənir, bundan sonra da uzun illər ərzində səslənəcək. Çünki bu əsərlərin mahiyyətində həm Tofiq Quliyevin istedadı, eyni zamanda Azərbaycan xalqına, doğma Bakı şəhərinə olan məhəbbəti dayanır. Tofiq Quliyev öz xalqına çox bağlı idi, onun Azərbaycan, Bakı haqqında əsərləri bunu göstərir. Eyni zamanda onu tanıyanlar yaxşı bilirlər ki, çox gözəl insan, gözəl ziyalı idi, sözün əsl mənasında, böyük mədəniyyət xadimi idi və öz fəaliyyəti, öz əsərləri, Azərbaycanın ictimai həyatındakı rolu ilə tarixdə öz layiqli yerini tutmuşdur.

Tofiq Quliyevin xatirəsi Azərbaycanda əbədiləşdirilmişdir. Onun yaşadığı binaya xatirə lövhəsi vurulmuşdur, şəhərimizin küçələrindən birinə onun adı verilmişdir, eyni zamanda musiqi məktəbi də onun adını daşıyır və bu gün bu gözəl abidə ucaldılır. Onu da bildirməliyəm ki, Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə Tofiq Quliyevə Azərbaycanın ovaxtkı ən ali ordeni olan “İstiqlal” ordeni verilmişdir.

Atam Heydər Əliyevi Tofiq Quliyevlə sıx dostluq əlaqələri bağlayırdı. Onlar onilliklər ərzində bir-birinə böyük hörmət göstərən insanlar idi. Baxmayaraq ki, Heydər Əliyev Azərbaycanın ovaxtkı Kommunist Partiyasının rəhbəri idi, ondan sonra müstəqil Azərbaycanın Prezidenti idi, Tofiq Quliyev isə ömrü boyu siyasətdən uzaq bir insan idi. O, sadəcə olaraq, öz yaradıcılığı ilə Azərbaycana həm sovet dövründə, həm müstəqillik dövründə o qədər böyük töhfə vermişdi ki, hamımız, hətta onu tanımayanlar da onun əsərlərini özümüz üçün çox əziz və yaxın tuturduq. Atam isə onu yaxından tanıyan insan kimi bilirdi ki, Tofiq Quliyev nə qədər böyük insani keyfiyyətlərə malik idi.

Onların dostluğu çox təbii idi, səmimi idi, təmənnasız idi, əsl dostluq idi. Tofiq Quliyevin 80 illik yubileyində Ulu Öndər Heydər Əliyev məşhur sözləri demişdir, yəqin ki, hamımız o sözləri xatırlayırıq – biz hamımız dünyadan gedəcəyik, ancaq Tofiq Quliyevin musiqisi daim yaşayacaqdır. Artıq o gündən 26 il keçib və nə qədər dəqiq, həqiqətə uyğun sözlərdir, indi biz bunu bir daha görürük. Heç birimizdə şübhə yoxdur ki, əsrlər keçdikcə bu unudulmaz musiqi, bu mahnılar, Azərbaycan xalqının musiqi istedadını əyani şəkildə göstərən əsərlər yaşayacaq, bizi və sonrakı nəsilləri sevindirəcək.



Mən bu gözəl hadisə münasibətilə, ilk növbədə, Tofiq Quliyevin ailə üzvlərini, Azərbaycan musiqi ictimaiyyətini və bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm. Sağ olun.

***

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, professor **Fərhad Bədəlbəyli** çıxış edərək dedi:

– Möhtərəm cənab Prezident, çox sağ olun bu sözlərə görə.

Tofiq müəllim nəinki dahi bəstəkar, dahi ictimai xadim idi, mənim üçün, Polad üçün o, Tofiq əmi idi. Biz ona uşaqlıqdan “dyadya Tofiq” deyirdik.

Əlbəttə, mən piano sənəti ilə məşğul olan bir insanam. Qeyd etməliyəm ki, o, dahi bir pianoçu idi. Çünki Aysberq kimi professor Bakıda, Neyqauz kimi dahi professor Moskvada onun müəllimləri idi. Baxmayaraq ki, Tofiq müəllim gündə iki-üç saat çalmırdı, Akademiyamıza gələndə piano arxasında bir passaj ifa edəndə biz hamımız məəttəl qalırdıq. Praktika ilə heç məşğul olmayan bu insan necə belə dahi bir pianoçu idi.

Əlbəttə, mən xoşbəxtəm ki, son illər o bizim fəxri professorumuz idi. Hər dəfə Akademiyaya gələndə onun hansısa bir mühazirəsi olmurdu, sadəcə, biz yığışırdıq və Tofiq müəllim musiqi tarixindən, Qara Qarayev, Niyazi, Fikrət Əmirov haqqında əhvalatlar danışırdı, çünki o, canlı bir ensiklopediya idi. Mən çox danışmaq istəmirəm, çünki məndən sonra Polad da danışacaq. Mən, sadəcə, demək istəyirəm xoşbəxtəm ki, onunla tamasda olmuşam. Xoşbəxtəm ki, onun bir çox premyeralarında iştirak etmişəm, atam rejissor kimi, mən də tamaşaçı kimi. Xoşbəxtəm ki, bir-iki həftə öncə Vyanada konsertdə mən onun məşhur “Qaytağı”sını ifa etdim. Yenə də bütün avropalılar məəttəl qalırlar, bu, nə gözəl əsərdir. Xoşbəxtəm ki, vaxtilə bu əsəri – “Qaytağı”nı mənə həsr edib və indi bütün dünyada pianoçular bu əsəri ifa edirlər.

Yəni Tofiq müəllim belə insan idi. Ulu Öndər o ordeni ona xəstəxanada təqdim etmişdi, gedib ona baş çəkmişdi və təbrik etmişdi. Bilirsiniz, bu, çox təsirli idi, biz onu həmişə xatırlayırıq.

Fürsətdən istifadə edib sonda Sizə “Çox sağ olun!” demək istəyirəm ki, Bülbülün heykəlini, Rəşid Behbudovun heykəlini, Qara Qarayevin, Fikrət Əmirovun heykəlini məhz Siz açmısınız bizimlə bir yerdə. Biz 1982-ci ilin qışında Şuşada Ulu Öndərlə bir yerdə Vaqifin məqbərəsinin açılışında iştirak edirdik. Çox yaxşıdır ki, 100 il də keçsə, bu insanların heykəlləri duracaq. Tofiq müəllim, bax burada dayanacaq və onun musiqisi bütün dünyada yenə də səslənəcək. Çox sağ olun.

***

Xalq artisti, görkəmli bəstəkar **Polad Bülbüloğlu** çıxış edərək dedi:

– Möhtərəm cənab Prezident.

Hörmətli xanımlar, cənablar, əziz dostlar.

Əvvəla, dərin təşəkkürümü bildirmək istəyirəm ki, bu gün mənə bu abidənin açılışında söz verilib.

Mənim üçün Tofiq əmi, doğrudan da, əziz bir insan idi. Çünki uşaqlıqdan bizim evdə mən şahidi olmuşam ki, Tofiq müəllim gəlirdi, – bilirsiniz ki, Bülbül Tofiq Quliyevin bir neçə mahnısını, romanslarını ifa etmişdir, – Fərhad da bizdə olurdu, çox gözəl piano çalırdı. Atam həmişə öz əsərindən başqa ona müraciət edərdi ki, Tofiq bir az çal da, adamın ürəyi açılsın. Doğrudan da, elə idi, biz, – Fərhad bunu dedi, – uşaqlıqdan ona Tofiq əmi deyirdik. Mən çox şadam, xoşbəxtəm ki, ömürboyu bu insanla çox sıx təmasda olmuşam.

1960-cı illərdə Tofiq müəllim Filarmoniyanın bədii rəhbəri və direktoru idi. Biz gənc bəstəkar idik, o bizə çox kömək edirdi, bizim əsərlərimizi alırdı, yəni maddi yardım edirdi, bizə yol göstərirdi, tövsiyələrini verirdi. Ancaq mənə yox, bütün o nəslin, o cavan bəstəkar nəslinin, demək olar ki, mənəvi atası kimi. Ümumiyyətlə, bilirsiniz bəstəkarlar çox qısqanc olurlar, musiqiçilər də qısqanc olurlar. Amma Tofiq müəllim elə deyildi, Tofiq əmi elə deyildi. O, digərlərinin uğurlarına da çox sevinirdi. Onun mahnıları ölməzdir, ona görə ki, onlar insanın daxilindən, qəlbindən, saflığından gəlir. Ona görə onun mahnılarını milyonlarla insan sevir və burada deyildiyi kimi, bu mahnılar, onun əsərləri daim yaşayacaqdır. Ona görə ki, o, insan kimi də gözəl insan idi və böyük musiqiçi idi, böyük bəstəkar idi, böyük pianoçu idi.

Hörmətli Prezidentimiz dedi, doğrudan da, mən onun şahidiyəm, bizim Ulu Öndərimiz, böyük insanımız Heydər Əliyev Tofiq müəllimə xüsusi münasibət bəsləyirdi. Mənə nəsib olub, o vaxt Heydər Əliyev rayonlarda böyük müşavirələr keçirirdi və oraya gedəndə həmişə yaradıcı insanları da dəvət edirdi – bəstəkarları, rəssamları, yazıçıları, ifaçıları və bizə deyirdi ki, mən sizi buraya gətirirəm ki, əvvəla, siz bir az millətə, xalqa yaxın olasınız, ikincisi də xalq sizi görsün. Radioda eşidirlər, televizorda görürlər, amma sizi canlı görmək, onlar üçün daha xoşdur. Orada da biz görürdük ki, Heydər Əliyevin Tofiq Quliyevə xüsusi münasibəti var. Sonra mən nazir işləyəndə bir neçə dəfə bu haqda söhbətlər olub. Bilirsiniz ki, sonra Tofiq əmi Bəstəkarlar İttifaqının birinci katibi idi və onda da bəstəkarlara çox böyük yardım, çox böyük kömək edirdi.

Onu da qeyd edim ki, Tofiq müəllim çox yaxşı təşkilatçı idi. Bakıda böyük tədbirlər keçirirdi. Filarmoniyada olanda dünya şöhrətli musiqiçiləri dəvət edirdi, onların konsertlərini təşkil edirdi, Bəstəkarlar İttifaqında plenumlar,

*Ardı 2-ci səhifədə*

qurultaylar, müxtəlif tədbirlər keçirirdi. Həmişə onun təşkil etdiyi tədbirlər çox yüksək səviyyədə keçirdi.

Hörmətli cənab Prezident, Fərhad da dedi, mən də öz tərəfimdən Sizə dərin təşəkkürümü bildirmək istəyirəm ki, doğrudan, bizim Azərbaycanın paytaxtında, Bakı şəhərində xalqımızın xəzinəsi olan gözəl insanlara abidələr qoyulur. Həyat elə qurulub ki, əvvəl-axır biz hamımız bu dünyadan köçəcəyik. Tələsmək lazım deyil, amma əvvəl-axır olacaq. Amma bu abidələr həmişə qalacaq və Azərbaycan xalqının görkəmli insanlarını bütün dünyaya tanıtdıracaq. Məncə, bu gün Tofiq əminin ruhu şad olmalıdır. Allah ona rəhmət eləsin, qəbri nurla dolsun.

***

Əməkdar incəsənət xadimi **Rafiq Seyidzadə** çıxış edərək dedi:

– Hörmətli cənab Prezident, hörmətli tədbir iştirakçıları.

Mən Tofiq müəllim barədə bir neçə kəlmə demək istəyirəm. Mən onu xatırlayıram, onun barəsində, demək olar ki, o, Azərbaycanın müasir musiqisinin, Azərbaycanın müasir estrada musiqisinin banilərindən biri olub. Hörmətli Prezidentimizin dediyi kimi, o, doğrudan da, Azərbaycan cazını da böyük məharətlə təbliğ etmişdir. Demək istəyirəm ki, xatırlayıram, 1950-ci illərin ortalarında Azərbaycanda belə bir bum yaranmışdı və yeni bir mədəniyyət yaranırdı. O dövrdə gözəl ifaçılar var idi. Rəşid Behbudov Tofiq Quliyevin əsərlərini ifa edirdi və həmin əsərlər Bakıda geniş yayılmışdı. Biz cavanlar o əsərlərdən qidalanaraq yeni bir mədəniyyətə qovuşurduq.

Mən hörmətli Prezidentimizə demək istəyirəm ki, çox sağ olun, Siz bizə – incəsənət xadimlərinə belə yüksək münasibət göstərirsiniz. Çox sağ olun, cənab Prezident.

***

Tofiq Quliyevin qızı **Lalə Quliyeva** çıxış edərək dedi:

– Hörmətli cənab Prezident.

İcazə verin, atamın xatirəsinə göstərdiyiniz diqqət və qayğıya görə Sizə ailəmiz, doğmalarımız və yaxınlarımız adından təşəkkür edim. Bakıda və Şuşada küçələr, paytaxtın ən yaxşı musiqi məktəblərindən biri onun adını daşıyır, Birinci Fəxri xiyabanda gözəl abidəsi və yaşadığı evin divarında barelyefi qoyulub. Heydər Əliyev Fondu tərəfindən bəstəkarın 100 illik yubileyi ilə bağlı yaradıcılıq irsinin bərpası və qorunub saxlanması istiqamətində çox böyük iş görülüb. Onun əsərlərinin nəfis tərtibatda not və audioyazıları, kitablar nəşr olunub. Tofiq Quliyevin ad günündə Heydər Əliyev Mərkəzində təntənəli konsert təşkil edilib. İndi isə bizim hörmətli Prezidentimizin Sərəncamına əsasən Tofiq Quliyevin 105 illik yubileyi ilə bağlı abidəsi ucaldılıb. Siz qeyd etdiyiniz kimi, bu abidənin "Heydər Əliyev İli"ndə açılması əlamətdardır və rəmzi məna daşıyır. Çünki onlar hələ gənc ikən Naxçıvanda tanış olub və ömürlərinin sonunadək dostluq ediblər.

Daha bir xatirə. Azərbaycan üçün çətin olan 1992-ci ildə atamın 75 illik yubileyi keçirilirdi. O, səhnədə çıxış edərkən demişdi ki, bu konsertin Qarabağda, Şuşada keçirilməsi onun ən böyük arzusudur. Təəssüf ki, o bu günləri görmədi. Lakin onun musiqisi və mahnıları artıq işğaldan azad olunmuş Şuşada keçirilən birinci "Xarıbülbül" festivalında səsləndi. Əziz Prezidentimiz, atamın, bütün Azərbaycan xalqının arzusu məhz Sizin sayənizdə çin oldu. Hər şey üçün çox sağ olun!

***

Sonra Prezident İlham Əliyev Tofiq Quliyevin ailə üzvləri, mədəniyyət və incəsənət xadimləri ilə söhbət etdi.

Onlar Azərbaycanda mədəniyyət və incəsənət sahəsinə göstərdiyi yüksək diqqət və qayğıya, eləcə də Bakının mərkəzində Tofiq Quliyevin abidəsinin ucaldılmasına görə dövlətimizin başçısına bir daha minnətdarlıqlarını bildirdilər.

# Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır

## *Prezident İlham Əliyev Türkiyənin Azərbaycandakı səfirliyində olub, çox sayda insanın həlak olması ilə əlaqədar başsağlığı verib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Türkiyə Respublikasının ölkəmizdəki səfirliyində olub, Türkiyədə baş vermiş zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar başsağlığı verib.

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı dövlətimizin başçısını qarşıladı.

Prezident İlham Əliyev matəm kitabına ürək sözlərini yazdı.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

**Prezident İlham Əliyev** dedi:

– Sizə bir daha başsağlığı verirəm. Çox böyük bəladır, böyük faciədir. Günahsız insanlar həlak olublar, yaralanıblar.



Bilirsiniz ki, Azərbaycan hər zaman olduğu kimi, ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında idi və öz dəstəyimizi, öz həmrəyliyimizi həmişə olduğu kimi nümayiş etdirmişik. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik. Hər zaman Türkiyə də bizim yanımızdadır, yaxşı günlərdə, çətin günlərdə.

Bu dəhşətli zəlzələ bizi çox sarsıtdı. Yəni hər birimizə böyük mənəvi əzab verdi. Biz qardaşlarımızın dərdinə şərikik. Yaralılara tezliklə Allahdan şəfa diləyirik. Mən əziz qardaşım, cənab Prezidentə telefonla başsağlığı vermək üçün zəng edəndə dedim ki, bütün varlığımızla biz Sizinlə bir yerdəyik və bilirsiniz ki, durmadan heyətlər göndəririk. Eyni zamanda həkimlər, xilasedicilər, könüllülər göndərilir və göndəriləcəkdir.

Bilirsiniz ki, Azərbaycan xalqı könüllü olaraq qardaşlara, öz doğma qardaşlarına dəstək olmaq üçün kimin əlində nə var onu gətirir. Yəni kimi yorğan gətirir, kimi döşək gətirir, kimi gödəkcə gətirir. Kimin imkanı nəyə çatırsa, onu da əsirgəmir. Biz bütün dünyaya bir daha nümayiş etdiririk ki, təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələri mövcuddur və bu da təbiidir.

Bizim ictimai təşkilatlarımız da öz dəstəyini göstərirlər. Heydər Əliyev Fondu artıq böyük təşəbbüsə start verdi. Fondun bütün imkanları, Fondun nəzdində çalışan bütün insanlar artıq bu yardım kampaniyasına qoşulmuşlar.

Mənə verilən məlumata görə, özəl şirkətlər artıq fəaliyyətə keçiblər və həm maddi yardım, eyni zamanda texniki yardım göstərməyə başlamışlar. Mənim göstərişimlə bizim ən böyük şirkətimiz SOCAR öz dəstəyini verməyə başlayır. Bilirsiniz ki, SOCAR-ın Türkiyədə böyük fəaliyyəti, böyük imkanları var. Bu şirkət, eyni zamanda Türkiyə şirkətidir və əlində olan bütün imkanlarla yardım etməyə çalışır və çalışacaq.

Bilirəm ki, bizim dövlət qurumlarının nümayəndələri də öz təşkilatları çərçivəsində humanitar yardımın təşkilində fəaldırlar və bunu biz ancaq alqışlaya bilərik. Yəni bütün Azərbaycan xalqı bu gün qardaş türk xalqının yanındadır.

Mənim göstərişimlə bütün yardım məsələləri bir mərkəzdən idarə olunacaq, Prezident Administrasiyasının rəhbərinə göstəriş verildi. O cümlədən bizim xəstəxanalarda yaralı qardaş-bacılarımızın müalicəsi üçün bütün şərait var. Həm Bakıda, digər şəhərlərdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında artıq çarpayılar ayrılıb və əgər ehtiyac olarsa, biz xəstələri gətirməyə də hazırıq.

Paralel olaraq, böyük bir qrup könüllü artıq yola düşür. Bizim böyük könüllü qruplarımız var – həm Heydər Əliyev Fondunun nəzdində fəaliyyət göstərən könüllülər, həm ASAN könüllüləri, yəni onlar hər zaman Azərbaycanda bədbəxt hadisə baş verdikdə, – məsələn, bizdə də Şamaxı, Ağsu, İsmayıllıda zəlzələ baş verdikdə – ilk yardıma yetişən də onlar olmuşlar. Onlar indi hərəkətdədir, yoldadırlar.

Əminəm ki, Türkiyə bu acı sınaqdan da şərəflə çıxacaq, bunu da aşacaq. Ancaq bu, inanılmaz dərəcədə böyük faciədir. Hər bir qurtarılan can elə bil ki, bizə bir dünyanı bağışlayır. Yenə də deyirəm, həm Türkiyədən, həm Azərbaycandan, həm digər ölkələrdən gələn xilasedicilər çox böyük iş görürlər. Əlbəttə ki, burada əsas yük və mənəvi yük Türkiyə hökumətinin üzərinə düşür. Mənim qardaşım hörmətli Prezident dərhal bütün göstərişləri verdi, bütün nazirləri fəlakət zonalarına göndərmişdir və tam əminəm ki, güclü və qüdrətli Türkiyə dövləti bu çətinliyi də aşacaq və tezliklə qurtarma, arama işlərinin aparılmasında öz səylərini davam etdirəcək. Ondan sonra, təbii ki, bərpa işlərinə də biz qoşulmağa hazırıq. Yəni Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır. Biz belə görürük, Türkiyə və Azərbaycan vətəndaşları da belə görürlər. Bu ağır günlərdə Türkiyənin yanında olmaq bizim üçün böyük şərəfdir.

Bir daha deyirəm, keçmiş olsun, bütün həlak olanlara Allah rəhmət eləsin, yaxınlarına Allah səbir versin və təbii fəlakətlər olur, heç kim bundan sığortalı deyil. Amma Türkiyə dövlətinin operativ və çevik addımları bir daha göstərdi ki, insan amili Türkiyə hökuməti üçün əsas məsələdir və bu ağır sınaq, eyni zamanda Türkiyənin gücünü bir daha bütün dünyaya göstərəcək. Bu, qardaş xalqımızı sarsıtmayacaq, Türkiyə dövlətinin iradəsinə təsir etməyəcək. Türkiyə dövləti güclü dövlətdir və bu fəlakətlə də mübarizədə öz gücünü göstərir.

***

Türkiyənin Azərbaycandakı səfiri **Cahit Bağçı** dedi:

– Hörmətli cənab Prezident, ziyarətiniz üçün çox təşəkkür edirəm, böyüklük göstərdiniz. Sağ olun, var olun.

Biz bilirik ki, qardaş Azərbaycan ilk dəqiqədən etibarən Sizin tapşırığınızla səfərbər olmuşdur. Təkcə Fövqəladə Hallar Nazirliyi ilə deyil, bütün qurumları, cəmiyyətləri, xalqı ilə səfərbər olmuşdur. Ürəkləri bizim acımızı yüngülləşdirmək üçün döyünmüşdür. Biz bunun şahidi olduq, görürük. Çox təşəkkür edirik, sağ olun.

Həqiqətən, çox böyük zəlzələ oldu. Türkiyə tarixində ilk dəfə lokal olmayan zəlzələ bizə böyük acı verdi. Ondan çox şəhərə, on milyondan çox insanımıza təsir etdi, itkilərimiz hər gün artır. Allah millətimizə səbir versin və bir daha bizə belə böyük acı yaşatmasın, İnşallah.

Hörmətli cənab Prezident, çox təşəkkür edirəm. Həqiqətən, Azərbaycan bir ürək olmuşdur. Xalqınız gücü nəyə çatırsa, yardım edir. Yardım üçün çalışan insanların zəhməti sayəsində hazırda yük maşınları yola çıxıb. Həqiqətən, minnətdarıq. Bu gün Milli Məclisin sədri hörmətli Sahibə xanım, hörmətli Baş nazir Əli Əsədov və iqtisadiyyat naziri Mikayıl Cabbarov zəng etdilər. Sizin tapşırığınızla qurumlar istər daşıma, istərsə də generator, transformator, xəstəxana ləvazimatlarına ehtiyacla bağlı maraqlanırlar. Biz də onlarla koordinasiya şəraitində işləyirik.

Yaralarımızı sağaltmaq üçün dəstəyinizə görə çox sağ olun. Biz bilirik ki, qardaşıq və bunu ürəkdən yaşayırıq, hiss edirik. Türkiyə də bütün qəlbi ilə Azərbaycana təşəkkürlərini çatdırır, hörmətli cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Cahit Bağçı:** Sağ olun, cənab Prezident.

**AZƏRTAC**

# Naxçıvan əhalisi qardaş Türkiyə ilə əsl birlik və həmrəylik nümayiş etdirir

Naxçıvan əhalisi bütünləşərək Türkiyədə baş vermiş təbii fəlakətdən əziyyət çəkənlərə tam dəstək göstərir. Minlərlə insan səhər saatlarından humanitar yardım məqsədilə Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğuna axın edir, əllərindən gələn köməkliyi əsirgəmirlər.

Muxtar respublikada minlərlə insan Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğuna və şəhərdə yaradılmış digər qərargah nöqtələrinə gələrək qardaş ölkədə baş verən təbii fəlakətdən zərər görmüş insanlara yardım əlini uzadır. Havanın yağıntılı və soyuq olmasına baxmayaraq, minlərlə sakin geyimlər, qida, istilik ləvazimatları və digər zəruri əşyalar gətirərək qardaş ölkəyə tam dəstək göstərirlər.



Fevral ayının 8-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov da Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğuna gəliblər. Zəlzələ qurbanlarının xatirəsinə yaradılmış guşəyə muxtar respublika ictimaiyyəti adından əklil qoyulub, zəlzələdə həlak olanların xatirəsinə ehtiram bildirilib.

Fuad Nəcəfli Baş Konsulluqda açılan matəm kitabını yazıb. Səlahiyyətli nümayəndə baş vermiş təbii fəlakətdə həlak olanlara görə başsağlığı verib, yaralananlara şəfa diləyib, Naxçıvandan humanitar yardımların davam etdiriləcəyini bildirib.

Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya göstərilən dəstəyə görə minnətdarlıq edib, zəlzələnin fəsadları, aparılan axtarış-xilasetmə işlərinin vəziyyəti barədə məlumat verib.

Qeyd edək ki, fevralın 6-da Türkiyədə 7,7 və 7,8 maqnitudalı iki böyük zəlzələ baş verib və 10 vilayətdə 13,5 milyon insana təsir göstərib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölənlərin xatirəsini anmaq üçün ölkədə 7 günlük matəm elan edib. Bundan başqa, ölkənin zəlzələ baş verən 10 əyalətində 3 aylıq fövqəladə vəziyyət elan olunub. Güclü zəlzələ nəticəsində ölənlərin sayı 8574 nəfərə çatıb. Təbii fəlakət nəticəsində 49 133 nəfər yaralanıb. 8 mindən çox insanın həyatı xilas edilib. Hazırda Azərbaycandan yollanmış qrupların da səyi nəticəsində axtarış-xilasetmə işləri davam etdirilir.

**"Şərq qapısı"**

# Naxçıvan üzərindən elektrik enerjisinin ixracı müzakirə edilib





Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov Azərbaycan Prezidentinin Naxçıvan Muxtar Respublikasındakı səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə elektrik enerjisinin Naxçıvan Muxtar Respublikası üzərindən ixracını müzakirə edib.

Bu barədə energetika naziri Pərviz Şahbazov məlumat yayıb.

"Azərbaycan Prezidentinin Naxçıvan Muxtar Respublikasındakı səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Baş nazir Səbuhi Məmmədov və Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev ilə sənaye miqyaslı "Yaşıl enerji" layihələrinin reallaşdırılması və Naxçıvan üzərindən ixracı perspektivlərinə dair səmərəli müzakirələrimiz oldu", – deyə nazir qeyd edib.

**AZƏRTAC**

# Naxçıvanın muxtariyyəti tarixi hadisədir



*Qədim Azərbaycan bölgəsi olan Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol keçmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır. Naxçıvan Muxtar Respublikasının yaradılması isə Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsinə çevrilmişdir.*

XX əsrin 20-ci illərində Naxçıvan diyarı çox çətin və mürəkkəb hadisələrlə qarşılaşmış, Zəngəzurun itirilməsi ilə Azərbaycandan ayrı düşmüş, məkrli düşmənimiz olan erməni millətçiləri Naxçıvanı tutmaq üçün hər cür vasitələrə əl atmışlar. Lakin qəhrəman naxçıvanlılar bölgənin işğal edilməsinə yol verməmiş, onu qoruyub saxlamış və Azərbaycanla birləşməsinə nail olmuşlar.

O dövr hadisələri çətinləşdirən ən mühüm cəhətlərdən biri də bir sıra iri dövlətlərin tutduqları mövqe, Naxçıvan diyarının Ermənistana verilməsi üçün müxtəlif yollardan istifadə etmələri idi. Bu dövlətlərdən biri general-qubernatorluq yaratmaqla, başqa birisi bitərəf, yaxud neytral zona formalaşdırmaqla, üçüncüsü isə torpaqları güzəşt etməklə Ermənistanı sovetləşdirmək yolunu tuturdular. Ermənilərin iddiaları bu idi ki, Cənubi Qafqazda inzibati ərazi bölgüsü aparılarkən onlara az pay düşmüşdür. Lakin onlar başa düşmək istəmirdilər ki, ərazilərin əsl sakinləri və sahibləri azərbaycanlılardır.

XX əsrin 20-ci illərində bolşevik Rusiyasının da məqsədi başqa dövlətlər kimi, Naxçıvanı Ermənistana vermək, bununla Türk dünyasının bir-biri ilə əlaqəsini kəsmək idi. Erməni daşnakları isə yaranmış şəraitdən istifadə edərək Azərbaycanın bir sıra torpaqlarını "böyük Ermənistan"a qatmaq siyasəti aparmışlar. Onların bu niyyətlərində Naxçıvanın zəbt edilməsi ilk planda dururdu. Ermənilər açıq-aşkar bildirirdilər ki, "Naxçıvan və Şərursuz Ermənistan yaşaya bilməz". Lakin qəhrəman naxçıvanlılar erməni basqınlarını mərdliklə cavablandırmış, məkrli düşmənlərin niyyətlərinin reallaşmasına imkan verməmişlər.

Naxçıvanlıların qəhrəmanlığından bəhs edən Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Nəsib bəy Yusifbəyli Azərbaycan parlamentindəki çıxışında demişdir: "İgid naxçıvanlılar, şərurlular... bu məsələni özləri həll etdilər. Onlar həyatlarını, ailələrinin şərəfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar".

Ermənistanın Naxçıvana olan iddialarının artdığı bir dövrdə – 1918-ci il iyulun 7-də Kazım Qarabəkir Paşanın başçılığı ilə türk ordusu Naxçıvana gəldi və erməni özbaşınalığının qarşısını almaq üçün yerli əhaliyə kömək göstərdi. Lakin Birinci Dünya müharibəsində məğlub olduqlarına və Mudros müqaviləsinin şərtlərinə görə, türk qoşunları Azərbaycanı, eləcə də Naxçıvanı tərk etməli oldu.

Naxçıvanlılar bu diyarı erməni işğalından qorumaq üçün 1918-ci il noyabrın 18-də Araz-Türk Cümhuriyyəti adlı respublika yaratdılar. Əmir bəy Nərimanbəyovun rəhbərlik etdiyi hökumətin tərkibi 6 üzvdən ibarət idi. Mehridən başlamış Şərdarabada qədər olan 8,7 min kvadratkilometr bu ərazi respublikanın idi. Bu cümhuriyyətin yaradılmasında başlıca məqsəd bölgənin erməni işğalı altına düşməsinə imkan verməmək idi. Qısa müddətdə 20 tabordan, 500 nəfərlik süvari alaydan ibarət hərbi qüvvələr yaradılmışdı. Respublika əhalisinin öz müstəqilliyini qorumaq əzmi o qədər böyük idi ki, doğma ocaq və torpaqları müdafiə edən könüllü dəstələr işğalçıları təkcə darmadağın etmir, eyni zamanda İrəvanın özünü qorxuya salırdı. III Kalbalı xanın rəhbərliyi ilə 6 min nəfərlik könüllü müqavimət dəstələri erməni hərbi qüvvələrini darmadağın etmişdilər. Bunu Ermənistan Respublikasının ilk baş naziri O.Kaçaznuni 1923-cü ildəki çıxışında açıq etiraf etmişdir. Naxçıvanın müdafiəsində Araz-Türk Cümhuriyyətinin qüvvələri ilə yanaşı, Cəfərqulu xan, Rəhim xan, III Kalbalı xan, Kərim xan, Bəhram xan və yerli ziyalıların çox böyük xidmətləri olmuşdur.

O dövrdə ingilislər və amerikalılar Naxçıvanı erməni "idarəçiliyinə" vermək üçün çox canfəşanlıq göstərdilər. Lakin Azərbaycan Xalq Cümhuriyyəti, Müsəlman Milli Şurası və Naxçıvan əhalisi buna imkan vermədi.

Araz-Türk Cümhuriyyətinin süqutundan sonra Azərbaycan Xalq Cümhuriyyəti Naxçıvan general-qubernatorluğunu yaratdı. İlk əvvəl general-qubernator Bəhram xan Naxçıvanski, sonra isə Səməd bəy Cəmillinski oldu.

1920-ci ilin aprelində Azərbaycanda bolşevik hakimiyyəti yaradıldı. Naxçıvanda sovet hakimiyyəti iyulun 28-də elan edildi və Hərbi İnqilab Komitəsi yaradıldı. Avqustun 10-da Naxçıvan Hərbi İnqilab Komitəsinin sədri M.Bektaşov Azərbaycan SSR XKS-nin sədri Nəriman Nərimanova belə bir məktubla müraciət etdi: "Naxçıvan xalqının böyük əksəriyyətinin qərarı ilə Naxçıvan ölkəsi özünü Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz hissəsi hesab edir".

Naxçıvanın azərbaycanlı əhalisinin qətiyyətli mövqeyi və mübarizəsi ermənilərin Naxçıvanla bağlı planlarını pozdu. Bu işdə iri dövlətlər də onlara kömək göstərə bilmədilər. Məkrli niyyətlərini hələlik pərdələyən ermənilər və Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də Naxçıvanı müstəqil sovet respublikası kimi tanımış və bu diyar ilə əlaqədar iddialarından imtina etmişdir.

Ancaq Naxçıvan diyarının əhalisi özlərini Azərbaycandan ayrı təsəvvür etmirdi. Onlar hələ o vaxt öz qəti fikirlərini belə ifadə etmişdilər: "Bu xalq mədəni dövlətlərin alovlarında məhv olmağa razı olar, amma Azərbaycandan ayrılmaz". N.Nərimanov və onun yaxın silahdaşlarının qəti mövqeyi və prinsipiallığı sayəsində Naxçıvanı Ermənistana birləşdirmək cəhdi baş tutmadı. 1921-ci ilin yanvarında keçirilən rəy sorğusunda Naxçıvan əhalisinin 90 faizi diyarın muxtar respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verdi.

Naxçıvanın Azərbaycanın tərkibində qalmasında B.Şahtaxtinskinin də böyük əməyi və tarixi xidmətləri olmuşdur. O, Leninə göndərdiyi məktub, teleqram və arayışlarda Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdi. Beləliklə, referendumun nəticəsi, B.Şahtaxtinskinin təklifi, Türkiyə tərəfinin ədalətli yanaşması ilə Naxçıvan üzərində Azərbaycanın suverenliyinin təmin edilməsi və Naxçıvanın Azərbaycanın tərkibində qalması ilə nəticələndi. 1921-ci il martın 16-da Siyasi Büro Azərbaycanın himayəsində Naxçıvan Sovet Respublikasının təşkili barədə qərar qəbul etdi və həmin gün imzalanan Moskva müqaviləsinin 3-cü maddəsində də bu cəhət öz əksini tapdı: "Naxçıvan vilayəti bu müqavilənin I (C) əlavəsində göstərilən sərhədlər daxilində Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir".

1921-ci il oktyabrın 13-də Azərbaycan, Gürcüstan, Ermənistan SSR ilə Türkiyə arasında Rusiya nümayəndəsinin iştirakı ilə imzalanan Qars müqaviləsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi və onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Moskva müqaviləsindən fərqli olaraq Qars müqaviləsinin V maddəsində Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflər müəyyən edilmişdir – bunlar Türkiyə, Azərbaycan, Ermənistan hökumətləri idi.

1921-ci ildən 1924-cü ilədək, yəni muxtariyyət statusundan muxtar respublikanın təşkilinə kimi çoxsaylı müzakirələr getmişdi. Bu müzakirələrdə bir məsələ aydın idi ki, Azərbaycanın daxilində Naxçıvanın muxtariyyət təşkil etməsi bölgənin spesifik ərazi vəziyyəti – geosiyasi şəraiti ilə bağlı idi. Naxçıvanın Azərbaycandan aralı düşməsi, heç bir ortaq sərhədə malik olmaması onun inzibati idarəçiliyini qəza və ya rayon hüquqlarında təşkil etməyə imkan vermirdi. 1923-cü il iyunun 16-da Naxçıvan muxtar diyar adlandırıldı. 1924-cü il fevralın 9-da Azərbaycan MİK-in Rəyasət Heyəti Naxçıvan diyarının Naxçıvan MSSR-ə çevrilməsi haqqında dekret qəbul etdi.

Naxçıvanın muxtariyyət statusunun hüquqi bazasının yaradılması 1924-cü ilin aprelində təsdiq edilmiş Əsasnamə və 1926-cı il aprelin 18-də qəbul olunmuş Naxçıvan MSSR-in birinci Konstitusiyası və sonrakı konstitusiyalarla təsbit edildi.

Ümummilli Liderimiz Heydər Əliyev Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə – 1992-ci ilin mart və avqust aylarında Türkiyə Respublikasına səfəri zamanı Moskva və Qars müqavilələri yenidən gündəmə gətirmişdir. Dahi rəhbər dünya ictimaiyyətinin diqqətini Ermənistanın təcavüzkar siyasətinə yönəltməklə, Naxçıvanın muxtariyyət statusuna ikinci həyat bəxş edərək Ermənistanın ilk və ən böyük beynəlxalq siyasi məğlubiyyətə uğramasına nail olmuşdur.

Naxçıvanın muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsində 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycan Respublikası Konstitusiyasının mühüm rolu oldu. Konstitusiyanın 134-cü maddəsinin ilk bəndində deyilir: "Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir..."

Azərbaycan Respublikasının Konstitusiyası əsasında Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyası hazırlandı və 1998-ci il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi. Konstitusiyanın birinci maddəsində göstərilir: "Naxçıvan muxtar dövləti Azərbaycan Respublikasının tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır... Naxçıvan Muxtar Respublikasının ərazisi Azərbaycan Respublikasının dövlət sərhədləri hüdudunda vahiddir, toxunulmazdır və bölünməzdir". Ulu Öndər Naxçıvanın muxtariyyət statusu əldə etməsinin tarixi əhəmiyyətini və bu sahədə beynəlxalq müqavilələrin rolunu qiymətləndirərək demişdir: ***"Naxçıvanın muxtariyyəti tarixi hadisə olubdur. Bu, çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün xüsusən Moskva müqaviləsinin və Qars müqaviləsinin burada böyük əhəmiyyəti vardır. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir".***

Ümummilli Lider, qüdrətli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvan Muxtar Respublikası ilə bağlı sərəncamlar, bu diyara tarixi səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həllivacib olan digər məsələlərin həyata keçirilməsi muxtar respublikanın hərtərəfli inkişafı üçün zəmin yaratmış və təmin etmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Ulu Öndər Naxçıvan Muxtar Respublikasını inkişaf etmiş bir diyar kimi görmək istəyirdi. Bununla əlaqədar Prezident cənab İlham Əliyev demişdir: ***"Ulu Öndər Heydər Əliyev həmişə Naxçıvana böyük diqqətlə yanaşırdı, problemlərin həlli üçün müvafiq göstərişlər verirdi və böyük qayğı göstərirdi. Mən də bu siyasəti davam etdirirəm..."***

Dövlət başçısının ötən dövrdə muxtar respublikanın müdafiə, enerji və ərzaq təhlükəsizliyinin təmin edilməsi yolunda atdığı mühüm addımlar qədim diyarın hərtərəfli inkişafına zəmin yaratmışdır. Həyata keçirilən quruculuq tədbirləri nəticəsində Naxçıvanın bütün yaşayış məntəqələri abadlaşdırılmış, avtomobil yolları yenidən qurulmuş, muxtar respublikanın ərazisi tamamilə qazlaşdırılmış, bərpa olunan enerji mənbələrindən istifadə yaşıl enerjidən istifadənin payını artırmışdır. Görülən kompleks işlərin nəticəsidir ki, Naxçıvan enerji idxal edən bölgədən enerji ixrac edən diyara çevrilmişdir.

Naxçıvanın hərtərəfli inkişafı bu diyarı ölkəmizin ən inkişaf etmiş regionlarından biri səviyyəsinə çatdırmışdır. Təsadüfi deyildir ki, muxtar respublika Azərbaycanın regionları arasında 2017 və 2018-ci illərdə 18 parametr üzrə lider region səviyyəsinə yüksəlmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfərlərində burada görülmüş işlərdən razı qaldığını dəfələrlə bildirmişdir: ***"...Doğrudan da, son illər ərzində Naxçıvan böyük inkişaf yolu keçmişdir. Naxçıvan şəhərinin abadlaşdırılması, gözəlləşdirilməsi, infrastruktur layihələrinin icrası, bütün şəhər və kəndlərin abadlaşması prosesi onu göstərir ki, respublika möhkəm ayaqda dayanır. Hesab edirəm ki, bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür. Çünki bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr var".***

*Ötən ilin sonlarından isə muxtar respublikada yeni idarəçilik sisteminin yaradılması ilə bağlı mühüm addımlar atıldı. Belə ki, dövlət başçısının 2022-ci il 22 dekabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin olundu. Nümayəndəlik institutunun yaradılması ilə bütün sahələrdə yeni dövrün tələblərinə uyğun olaraq iş prinsipinin qurulması, muxtar respublikanın bundan sonrakı inkişafı üçün lazımi tədbirlərin həyata keçirilməsi vacib istiqamətlər kimi müəyyənləşdirilib. Muxtariyyətinin 99-cu ilində yeni inkişaf mərhələsinə qədəm qoyan Naxçıvan bundan sonra da Ulu Öndər Heydər Əliyevin ümummilli ideyalarına sadiq qalaraq gələcəyə doğru inamla addımlayacaq.*

**"Şərq qapısı"**



# Bir millət, iki dövlət — AZƏRBAYCAN-TÜRKİYƏ

*Fevralın 6-da Türkiyənin 10 vilayətində baş verən güclü zəlzələlər nəticəsində yaranan dağıntıların aradan qaldırılması, insan tələfatlarının qarşısının alınması üçün təxirəsalınmaz tədbirlər görülür. Təbii fəlakətin baş verdiyi ilk andan etibarən ölkəmizin əsl qardaşlıq, dostluq münasibətinin, həmrəyliyinin göstərici kimi Prezident cənab İlham Əliyevin göstərişinə əsasən zəlzələ bölgəsinə ard-arda bir neçə çevik xilasetmə dəstəsi, yaralananların müayinə və müalicəsi məqsədilə səhra çadırları, tibbi ləvazimatlar, maddi yardımlar göndərilib. Dövlətimizlə yanaşı, xalqımız da bu ağır, çətin gündə türkiyəli qardaşlarını yalnız buraxmır, ölkəmizin hər yerindən yüzlərlə, minlərlə insan əlindən gəldiyi qədər evsiz-eşiksiz qalan, dəstəyə ehtiyacı olanlara öz köməkliyini göstərməyə çalışır.*

## Qardaşlıq, dostluq, həmrəylik və sevgi örnəyi...

### *Türk qapısı Naxçıvandan türkə dəstək*

Naxçıvan Muxtar Respublikasında da fevralın 7-dən etibarən Türkiyəyə hərtərəfli dəstək aksiyası keçirilir, paytaxt Naxçıvan şəhərində, rayonlarda sakinlər, iş adamları, sahibkarlar yardım kampaniyalarına, humanitar aksiyaya canla-başla qoşulublar.

Məlumat üçün bildirək ki, dünən Naxçıvan sahibkarlarına məxsus Türkiyəyə yardım aparan ilk TIR yola düşüb. Bu barədə Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev "Bakı KOB evi"ndə keçirilən Türkiyədə baş vermiş zəlzələdən zərərçəkənlərə dəstək məqsədilə Azərbaycanın dövlət və özəl qurumlarının dəstəyi ilə yaradılmış "Qardaş köməyi" dəstək platformasının təqdimatı mərasimində deyib. Naxçıvan Muxtar Respublikasının Bakıdakı Daimi Nümayəndəliyinin kollektivi də zəlzələ bölgəsinə humanitar yardım göndərib. Yardım yük avtomobilinə yığılaraq Türkiyəyə yola salınıb.

Türkiyə Cümhuriyyətinin Naxçıvandakı Baş Konsulluğunun yardımla bağlı çağırışından sonra yüzlərlə, minlərlə insan isti geyim, qida, zəruri məişət əşyaları ilə yardım üçün axın edir. Konsulluqdan bildirildiyi kimi, yardım kampaniyası fevralın 12-dək davam edəcək və adıçəkilən ləvazimatların



şəxsən və ya karqo yolu ilə toplama məntəqəsinə çatdırılması mümkündür. Konsulluqda olarkən başsağlığı üçün gəlmiş muxtar respublika ziyalıları ilə də görüşdük. AMEA-nın müxbir üzvü, professor ***Hacıfəxrəddin Səfərli*** bildirdi ki, Türkiyədə baş vermiş güclü zəlzələ, bunun insan tələfatı və dağıntılarla müşayiət olunması hər birimizi kədərləndirdi. Bu gün var gücümüzlə çalışırıq ki, qardaşlarımıza əlimizdən gələn köməyi edək. Ötən əsrin əvvəllərində olduğu kimi, 44 günlük Vətən müharibəsində də bizə hərtərəfli dəstək olan Türkiyəni unutmamışıq və bundan sonra da unutmayacağıq. İnşallah, birgə dəstəyimizlə bu çətinliyin də öhdəsindən gələcəyik. Uca Allah bu hadisədə dünyasını dəyişənlərə rəhmət, yaralılara tezliklə şəfa bəxş etsin.

"Naxçıvan" Universitetinin prorektoru, dosent ***Nurlana Əliyeva***nın dediklərindən: "Canı canımızdan, qanı qanımızdan olan türk qardaş-bacılarımızın yaşadıqları bu acını bölüşür, hələ də dağıntılar altında qalan insanların sağ-salamat xilas olunması üçün dua edirik. Bu hadisə Türkiyə üçün də, bizim üçün də çox ağırdır, necə çətin sınaqlardan keçdiyimizi göstərir. Lakin hər birimiz tək yumruq olub bunun da öhdəsindən gələcəyik. Azərbaycan hər zaman olduğu kimi, bu gün də Türkiyənin yanındadır və hər zaman da belə olacaq".

Təqaüddə olan həkim ***Yaşar Məhərrəmov*** isə fikirlərini belə ifadə etdi: "Türkiyə bu gün son yüz ilin ən ağır günlərindən birini yaşayır. Hadisənin ağırlığı baş vermiş zəlzələnin miqyasının daha geniş olması və yüksək dağıdıcılıqla müşayiət olunmasıdır. Xüsusilə insanların dağıntılar altında qalaraq həyatlarını itirməsi böyük faciədir. Hər birimiz bu faciənin doğurduğu üzüntünün içərisindəyik. Türk bacı-qardaşlarımız bilsinlər ki, bu çətin günlərdə onların yanındayıq, əlimizdən nə gəlirsə, onu da edəcəyik. Düşünürəm ki,



həmrəyliyimizlə, qardaşlığımızla bu çətinliklərin də öhdəsindən gələcəyik".

### *Tələbə-gənclərdən qardaşlıq və humanizm nümunəsi*

Naxçıvan Dövlət Universiteti də qardaş ölkə Türkiyədə baş vermiş zəlzələ nəticəsində zərərçəkənlərə dəstək aksiyası həyata keçirir. Çox sayda müxtəlif yardım paketlərinin daxil olduğu universitetdə olarkən baş mühasib ***Ülvi Baxışlı*** dedi: "Universitetimizin çoxminli kollektivinin bütün əməkdaşları və tələbə heyətimiz bu iş üçün səfərbər olub. Aksiyanı elan etdikdən bir gün keçməsinə baxmayaraq, 100-ə yaxın irihəcmli yardım paketi hazırlanıb. Burada soyuq qış şəraitini nəzərə alaraq qalın üst geyimləri, ayaqqabılar, əlcək, papaq və şərf, uşaqlar üçün qida və təmizlik ləvazimatları, eyni zamanda tibbi ləvazimatlar və çətin şəraitdə asanlıqla istifadə ediləcək qida məhsulları, konservləşdirilmiş ərzaqlar çeşidlənir və paketlənir. Aksiyamız davam edir. Arzu edirik ki, Türkiyə Respublikasında baş vermiş bu fəlakətin fəsadları tez bir zamanda aradan qalxsın və soydaşlarımız əmin-amanlıq içərisində öz həyatlarına davam etsinlər".

Burada yardım paketlərinin qəbul edilib, çeşidlənib sahmanlanmasında universitetin tələbə təşkilatları ətrafında cəmlənmiş könüllü gənclərin təmənnasız xidməti mühüm əhəmiyyətə malikdir. Naxçıvan Dövlət Universiteti Tələbə Elmi Cəmiyyətinin sədri ***Təbrizə Bağırova*** görülən bu işlər barədə məlumat verdi: "Mübariz xalqımız tək yumruq olub, qardaş ölkədə zəlzələdən zərərçəkənlərə dəstək verməyə çalışır. Humanitar yardımla yanaşı, tələbələrimiz və əməkdaşlarımız arasında zəlzələ zonalarına getmək və orada köməklik göstərmək istəyənlər də kifayət qədərdir. Bir millət, iki dövlət olan Azərbaycan və Türkiyə bir-birinin kədərini və sevincini özününkü hesab edir. İnanırıq ki, qardaş Türkiyə bu fəlakətin nəticələrini tezliklə aradan qaldıracaq, yenidən normal həyata dönəcək. Zəlzələ nəticəsində həlak olan soydaşlarımıza Uca Allahdan rəhmət, yaralılara şəfa diləyir, dağıntı altında qalanların sağ-salamat tapılmasını arzu edirik".

Ali təhsil ocağının Tibb fakültəsinin dekanı ***Elsevər Əsədov*** deyir: "Universitetimizdə əcnəbi tələbələrin əksəriyyəti Tibb fakültəsində təhsil alır. Aralarında Türkiyə vətəndaşları da az deyil. İmtahan sessiyasından sonra öz evlərinə dönən türk tələbələrimiz içərisində əsas zəlzələ mərkəzlərində yaşayan tələbələrimiz çoxdur. Bu hal bizim narahatlığımıza səbəb olsa da, daim həmin tələbələrimizlə əlaqə saxlayır, onların sağlamlığından əmin olmağa çalışırıq. Sevindirici haldır ki, zərərçəkənlər arasında tələbələrimiz yoxdur, ancaq onların ailələrinin köməyə və dəstəyə ehtiyacları var. Onların buradakı azərbaycanlı tələbə qardaşları dost xalqa yardım etmək üçün xüsusi canfəşanlıqla çalışır, həm maddi, həm də mənəvi cəhətdən onlara dəstək olurlar. Qardaş ölkə ilə qurduğumuz əlaqələr nəticəsində bu gün oradakı həmkarlarımızla sıx əlaqə saxlayır, oradakı vəziyyətdən xəbərdar ola bilirik. Biz hər birimiz şadıq ki, universitetimizin, vətəndaşlarımızın dəstəyi ilə zərərçəkmiş qardaşlarımıza kömək ola biləcəyik".

Naxçıvan Dövlət Universitetinin Əczaçılıq ixtisası üzrə təhsil alan Türkiyə vətəndaşları ***Furkan Mercan*** və ***Özgürcan Söyləmez*** də könüllü fəaliyyət göstərən gənclər sırasındadır. Onlar vətənlərinin ağır, çətin günlərində evlərindən uzaqda olsalar da, dəstəklərini bu şəkildə göstərməyə çalışırlar. Furkan Mercan vətəninin başına gəlmiş bu fəlakətdən çox sarsıldığını, ancaq öz dost-tanışları ilə daim əlaqədə qalaraq ruh yüksəkliyi yaratmağa, Naxçıvanda isə bu cür aksiyalara qoşularaq həm də maddi yardım etməyə çalışdığını deyir.

"Naxçıvan" Universitetinin müəllim və tələbələri də humanitar aksiyaya qoşulublar. Ali təhsil ocağının Pedaqogika və psixologiya kafedrasının müəllimi ***Aynur Əliyeva*** qeyd etdi ki, Türkiyənin müxtəlif bölgələrində baş verən dəhşətli zəlzələ hamımızı sarsıtdı. Bu çətin günlərdə vətəndaşlarımızın qardaş Türkiyə xalqının acılarını bölüşməsi, 44 günlük Vətən müharibəsində gördüyümüz birlik və bərabərliyin bu zamanda da nümayişi, vətəndaşlarımızın zəlzələdən zərərçəkənlərə əlindən gələn yardımı göstərməsi bir azərbaycanlı kimi məni qürurlandırdı. "Naxçıvan" Universitetinin kollektivi də bu yardımlara aktiv şəkildə qoşulub. Bir gün içərisində universitetin pedaqoji və tələbə heyəti ilə birgə lazımi vasitələri topladıq və yardım qərargahına təqdim etdik. Qəlbimiz və dualarımızla hamımız can Türkiyənin yanındayıq.

Universitetin tələbəsi, Mardin şəhərindən olan ***Dəniz Sarıdağ*** isə bizimlə söhbətində bunları dedi: "Azərbaycan hər zaman olduğu kimi, bu çətin gündə də bizim yanımızda durdu. Belə ağır bir vaxtda Azərbaycandan olan qardaşlarımızın bizimlə birlik və bərabərlik göstərməsi bütün Türk xalqına böyük təskinlik, güc, qüvvət verir. Allah razı olsun. Naxçıvanın da hər yerindən, təhsil aldığım universitetdən də hər cür yardım edilir. Bunun



üçün sonsuz təşəkkürümü bildirirəm".

Naxçıvan Müəllimlər İnstitutu da qardaş Türkiyəyə yardım aksiyasına qoşulub. İnstitutun müəllimi ***Çapay Quliyev*** deyir ki, qardaş Türkiyə Respublikasında baş verən zəlzələnin fəsadları çoxdur. Azərbaycan xalqı yaxın qonşu və bir qardaş kimi daim onların yanındadır. "Biz də Naxçıvan Müəllimlər İnstitutunun kollektivi olaraq bu aksiyaya qoşulmuşuq. İnstitutda bunun üçün qərargah yaradılıb. Tələbə və müəllimlərin gətirdiyi yardımlar burada toplanaraq çeşidlənir. Bu aksiya digər günlərdə də davam edəcək. Bu cür aksiyalar həm də tələbələrimiz üçün tərbiyəvi əhəmiyyət daşıyır. Onlar bölüşməyi, dəstəyin nə olduğunu mənimsəyirlər ki, bu da bizim üçün əhəmiyyətlidir. Qardaş Türkiyədə vəfat edənlərə Allahdan rəhmət, ailələrinə səbir diləyirik. Türk xalqı daim əzmli və iradəlidir. İnşallah, bu baş verən təbii fəlakətin yaratdığı çətinliklər qısa zamanda aradan qaldırılacaq.

İnstitutun İngilis dili müəllimliyi ixtisası üzrə 1-ci kurs tələbəsi ***Bəhriyyə Hüseynli*** də öz fikirlərini bizlərlə bölüşərək bildirdi: "Tarixboyu Azərbaycan xalqı daim türkiyəli qardaşlarının yanında olub. Bu gün də bu dəstəyi görürük. Bizim xalqımız bunu təkcə sözdə deyil, əməli ilə də göstərir, əlimizdən gələn yardımı əsirgəmirik. Qış olmasını nəzərə alaraq evləri dağılmış, çöldə qalmış, yardıma ehtiyacı olan bacı və qardaşlarımız üçün isti qış geyimləri toplayırıq. Xalqımız hər zaman olduğu kimi, bu gün də yardımsevərlik nümayiş etdirir".

Naxçıvan Dövlət Universiteti Musiqi Kollecində olarkən təhsil müəssisəsinin direktoru ***Məhəbbət Babayeva*** isə qeyd etdi ki, Türkiyədə baş verən zəlzələ, eləcə də onun yaratdığı fəsadlar hamımızı kədərləndirdi. Biz də hamı kimi kollektivimizlə birgə qardaşlarımız üçün humanitar yardımlara qoşulduq. Zəlzələdən zərərçəkmişlər üçün kişi, qadın, uşaq geyimləri, yataq dəstləri, məişət əşyaları, bir sözlə, nə lazımdırsa topladıq. Allahdan həyatlarını itirənlərə rəhmət, dağıntılardan zərərçəkən yaralılara isə şəfa diləyirik.

Naxçıvan Dövlət Texniki Kollecinin Tələbə-Gənclər Təşkilatının sədri ***Kamil Məmmədli*** bildirdi ki, baş vermiş təbii fəlakət nəticəsində zərərçəkmiş türk bacı və qar-



daşlarımıza mənəvi dəstək göstərmək, onlarla həmrəy olduğumuzu bildirmək məqsədilə Naxçıvan Dövlət Texniki Kollecinin işçi heyəti, tələbələr və onların ailələrinin iştirakı ilə "Acınız, acımızdır!" adlı dəstək aksiyası başladılıb. Bu aksiya ilə əlaqədar fevralın 7-də könüllülərdən ibarət dəstənin köməyi ilə birinci toplanmış əşya və ərzaq yardımı Naxçıvan şəhərindəki qərargaha çatıb. Kollecimizdə yardım aksiyası fevralın 12-dək davam edəcək.

Naxçıvan Tibb Kollecinin metodisti ***Səidə Şahverdiyeva*** vurğuladı ki, Türkiyədə baş verən təbii fəlakət nəticəsində çox sayda zərərçəkmiş əhaliyə humanitar köməklik göstərilməsi məqsədilə ölkəmizdə, eləcə də onun ayrılmaz hissəsi olan Naxçıvanda genişmiqyaslı yardım aksiyası başlanılıb. Biz də Naxçıvan Tibb Kolleci olaraq istər maddi, istərsə də ərzaq, geyim, təmizlik vasitələri və sair köməklik etməyi mənəvi borc bilirik. Qardaş Türkiyənin bu böyük fəlakətdən ən qısa zamanda xilas olunmasını arzu edirik.

Naxçıvan Şəhər İcra Hakimiyyəti də yardım aksiyasında fəal iştirak edir. Aldığımız məlumata görə, aksiya başladığı andan etibarən qısa zamanda qardaş Türkiyə Respublikasının zərərçəkmiş insanları üçün böyük yardım toplanıb, isti qış geyimləri, ayaqqabı, müxtəlif növ qızdırıcı cihazlar təhvil verilib. İcra hakimiyyətinin əməkdaşı, İnformasiya təminatı və təhlil sektorunun aparıcı məsləhətçisi ***Gülşən Əkbər*** deyir ki, qardaş Türkiyənin yaşadığı bu ağrılı-acılı hadisələr xalqımızı çox məyus edib. Onlardan xeyli uzaqda olsaq da, qəlbimiz, ruhumuz daim türk qardaşlarımızla birgə döyünür, hər anımız, hər dəqiqəmiz onlarladır. Vətənimizin hər yerində olduğu kimi, Naxçıvan Şəhər İcra Hakimiyyətinin kollektivi də bu aksiyada fəal iştirak edir. Aksiyanın son gününə qədər yardım əlimizi qardaşlarımıza uzadacağıq.

### *Növbəti xalq-ordu birliyi*

Məlumat üçün bildirək ki, yardım aksiyası üçün yığılanlar şəhərimizin Qaraxanbəyli kəndi yolunda, Zərifə Əliyeva adına küçənin başlanğıcında yerləşən Əlahiddə Ümumqoşun Ordunun anbarında cəmlənir, burada çeşidlənir və TIR-lara yüklənərək qardaş ölkəyə yola salınır. Biz də adıçəkilən

*Ardı 5-ci səhifədə*

# İki bədəndə bir can
# AZƏRBAYCAN-TÜRKİYƏ

ünvana yollandıq, buradakı işlərlə tanış olduq. Məlumat verildi ki, Əlahiddə Ümumqoşun Ordu da yardım aksiyasında fəal iştirak edir.

Heydər Əliyev adına Hərbi Lisey də bu aksiyada xüsusi vətənpərvərlik nümayiş etdirərək zabit və pedaqoji heyətləri, liseyin mülki hissəsi tərəfindən toplanan zəruri isti geyim və gündəlik tələbat mallarının Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində yaradılan qəbul məntəqəsinə təhvil verib.



Yaşından, daşıdığı vəzifədən asılı olmayaraq, hər kəsin nümayiş etdirdiyi bu həmrəylik insana, sözün əsl mənasında, qürur hissi yaşadır. Aksiyanın fəal iştirakçılarından olan həmsöhbətimiz həmin dəhşətləri gözü ilə görməsə də, mənəviyyatı ilə duyan, yaşayan, ailəsi, yaxınları üçün hər an qorxu keçirən qardaş Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğunun əməkdaşı ***Oğuz Yıldız*** oldu: "Artıq bir neçə gündür ki, vətənimizdə baş verən məlum təbii fəlakət bütün türk xalqına, qardaş Azərbaycanın ictimaiyyətinə, insanlarına ciddi təsir edib. Hər gün sosial mediadan, xəbər bülletenlərindən hadisələrlə bağlı xəbərlər alır və çox təəssüflənirik. Hətta zəlzələ nəticəsində dağıntı altında qalan ailələrdən eləsi var ki, onların bir üzvü belə sağ qalmayıb, hamısı dünyasını dəyişib. Mənim ailəm zəlzələnin baş verdiyi Hatay və Kahramanmaraş yaxınlığındakı bölgələrdə yaşayır. Bu qorxunc fəlakət nəinki yaşadığımız evi, hətta ailəmin, yaxınlarımın psixologiyasını alt-üst edib. Onlarla hər gün əlaqə saxlayıram, çarəsizliyin nə olduğunu bütün ruhumla, canımla hiss edirəm. Bu çətinliyi dillə ifadə etmək çox ağırdır, hətta mümkünsüzdür. Doğulduğun, böyüdüyün evin, ocağın bir anın içində yerləyeksan olması, təhsil aldığın məktəbin dağılması, yaxınlarının saatlarla, günlərlə dağıntıların altında qalması dəhşətlidir. Çox sağ olsun azərbaycanlı qardaşlarımız, naxçıvanlı soydaşlarımız. Kimin əlindən nə gəlirsə, yardım üçün bağışlayır. Özü darda, çətində, ehtiyac içində olan belə bunu etməkdən çəkinmir. Bu vətənsevərliyin qarşısında sözlər acizdir. Yaşasın Azərbaycan və Türkiyə qardaşlığı! Sağ olsun bir millət-iki dövlət olan, daim bir-birinə arxa-dayaq olan Vətənimiz, elimiz!"



Zəlzələdən əziyyət çəkənlər üçün Əlahiddə Ümumqoşun Ordu qardaş ölkəyə 510 ədəd müxtəlif ölçüdə çadır, 5000 ədəd toxunma corab, 1500 ədəd toxunma boyunluq, 1000 ədəd yun köynək, 237 cüt kişi ayaqqabısı, 200 ədəd istilik lampası, 423 ədəd portativ yataq, 613 ədəd plastik oturacaq göndərdi. Göndəriləcək ləvazimatlarla yanaşı, 2 ton quru ərzaq və müxtəlif dərman preparatları da zəlzələdən əziyyət çəkənlər üçün dünən yola salındı.

Öz yardımını təqdim edən 70 yaşlı Naxçıvan şəhər sakini, hazırda təqaüddə olan tarix müəllimi ***Həsən Əsgərov*** deyir ki, türk dövlətləri bu ağır fəlakətdən daha ağır hadisələrin şahidi olub, amma hər birinin öhdəsindən layiqincə gəlib, necə deyərlər, zamanın gərdişindən alnıaçıq, üzüağ çıxıb. Şükürlər olsun ki, Azərbaycan dövləti və qardaş Türkiyə Respublikası əsrlərin yadigarı olan bu qardaşlıq missiyasını bu gün də uğurla daşıyır. Vətəndaş kimi bizim də borcumuz bu çətin günlərdə türk soydaşlarımızın yanında olmaqdır, onlardan kömək əlimizi əsirgəməməkdir. Bütün qəlbimizlə inanırıq ki, türk xalqı bu çətinliyin də öhdəsindən gələcək.

### *Muxtar respublika rayonlarının qardaş dəstəyi*

Qardaş ölkə Türkiyədə baş verən dəhşətli zəlzələ nəticəsində zərərçəkmiş qardaşlarımıza, bacılarımıza muxtar respublikanın bütün rayonlarından yardımlar göndərilir. Şərur rayonunun mərkəzi xəstəxanası, şəhər 1 və 2 nömrəli tam orta məktəbləri, həmçinin kənd məktəblərində toplanan yardım xüsusi yük maşınları vasitəsilə Türkiyəyə göndərilməsi üçün Naxçıvan şəhərindəki toplama qərargahına aparılır.

Yardımda iştirak edən rayon sakinləri ilə görüşüb onların fikirlərini öyrəndik. Şərur rayon sakini ***Nərgiz Əliyeva*** dedi: "Türkiyədə zəlzələ nəticəsində dünyasını dəyişən qardaşlarımıza Allahdan rəhmət diləyir, yaralılara şəfa arzulayıram. Ümummilli Liderimiz Heydər Əliyevin də dediyi kimi, biz bir millət iki dövlətik. Tarixi ənənələrimizə uyğun bu gün də türk qardaşlarımızın yanındayıq, onlara yardımlarımızı əsirgəməyəcəyik".

Bir başqa sakin ***Kənan Məmmədov*** dedi: "Bu ağrılı-acılı günlərində çox istərdim ki, türk qardaşlarımın yanında olam. Bizim də əlimizdən gələn onlar üçün isti qış geyimləri, termos, adyal, yataq dəstləri göndərmək oldu. Bütün Türk dünyasına başsağlığı diləyirəm. İnanırıq ki, tezliklə bu təbii fəlakətin fəsadları aradan qalxacaq".



Babək rayon sakinləri də qardaş xalqa dəstək olmaq məqsədilə əllərindən gələni əsirgəmirlər. Babək şəhər sakini ***Fədai Süleymanov*** deyir ki, Türkiyə-Azərbaycan arasındakı sarsılmaz birlik xalqlarımız üçün ən böyük mənəvi dəyərə çevrilib. Ən yaxın tarixə nəzər saldıqda görürük ki, təkcə 44 günlük Vətən müharibəsində dost, qardaş Türkiyə dövləti və xalqı bütün mənəvi dəstəyini ortaya qoydu. 2021-ci ildə Türkiyənin Antalya və Marmaris bölgələrində baş verən genişmiqyaslı meşə yanğınlarında isə azərbaycanlı yanğınsöndürənlər qardaşlarımızın imdadına yetişdi. Bu gün yenə də birlik, bərabərlik günüdür. Zəlzələdən zərərçəkən insanlara dəstək göstərilməsi məqsədilə Babək şəhərində könüllü olaraq təşkil edilən bu humanitar aksiyada hamı fəallıq göstərir, əlindən gəldiyi qədər Türkiyədəki qardaşlarımıza, bacılarımıza öz yardımını göstərməyə çalışır. İnanırıq ki, həmrəyliyimiz, birliyimiz sayəsində bu çətin sınaqdan da üzüağ çıxacağıq. Zeynəddin kənd sakini ***Elşən Axundov***un dedikləri: "Sosial şəbəkələrdə zəlzələ bölgəsindəki insanlara yardımla bağlı çağırışı oxuduqdan dərhal sonra vaxt itirmədən qış üçün isti geyimlər, yorğan-döşək, çadır, qablaşdırılmış məhsulları hazırladıq və kəndin mərkəzində topladıqdan sonra yola saldıq. Orada da böyük bir izdiham var idi. İnsanlar gücü çatan, əlindən gələn nə varsa, onu etməyə çalışırdılar. İnşallah, tezliklə yardım karvanı zəlzələ zonasına çatar. Bu ağır sınaq günlərində bir qürurverici təsəllimiz də odur ki, azərbaycanlı xilasedicilər bu missiyanı şərəflə yerinə yetirir. Qəlbimiz qardaş Türkiyə ilə döyünür. Uca Yaradan həyatını itirənlərə rəhmət etsin, yaralılara şəfa versin".

Türkiyədə təbii fəlakətdən əziyyət çəkən insanlara yardım kampaniyasında Ordubad rayonunun sakinləri də olduqca fəal iştirak edirlər. Demək olar ki, rayonun bütün kəndlərində və Ordubad şəhərində yardımları toplamaq üçün xüsusi mərkəzlər yaradılıb. Ordubad şəhərindəki "Qapıcıq" ticarət mərkəzində fevralın 7-dən başlayaraq yardımlar qəbul edilməyə başlanılıb. Ticarət mərkəzinin işçilərindən ***Emin Sadiqov*** və ***Günel Rəhimli*** bizimlə söhbətdə bildirdilər ki, iki gün ərzində yüzlərlə sakin qardaşlıq yardımı kampaniyasında fəal iştirak edirlər.

Yardım təhvil verənlərdən ***Leyla Əliyeva***, ***Telman Həsənov***, ***Münəvvər İsmayıllı*** və başqaları türk qardaşlarımızın başına gələn faciədən olduqca təsirləndiklərini bildirdilər. Onlar qeyd etdilər ki, göndərilən yardımlar zəlzələ zamanı zərər görmüş bacı-qardaşlarımızın ağrı-acılarını azacıq da olsa, yüngülləşdirə biləcəksə, bu bizim üçün böyük toxtaqlıq sayılacaq.

Culfa rayonunun sakinləri də elliklə yardım aksiyasına qoşulub. Rayon mərkəzində və kəndlərdə qış paltarları, azyaşlı uşaqlar üçün lazım olan əşyalar, o cümlədən gödəkçə, şalvar, ələcək, corab, yorğan, döşək, ərzaqlar, təmizlik alətləri və digər lazımi əşyalar toplanılıb və göndərilib. Culfa Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə zəlzələdən əziyyət çəkən vətəndaşlar üçün çadır və generatorlar da yola salınıb.

Rayonun Camaldın kənd sakini ***Vahid İbrahimov*** və Culfa şəhər sakini ***Zeynəb İsmayılova*** bildirdilər ki, Türkiyə tarixinin ən böyük zəlzələsi ilə qarşı-qarşıya qaldığı bir vaxtda tez bir zamanda ehtiyac duyulan ləvazimatları toplayıb bacı-qardaşlarımız üçün yola saldıq. Bu gün ölkəmizin bütün insanları kimi culfalılar da türk qardaşlarımız üçün tək ürək olub. İnanırıq ki, tez bir zamanda bu çətin günləri geridə qoyacağıq.

Kəngərli rayonunda da könüllü olaraq təşkil edilən bu humanitar aksiyada insanlar zəlzələ zonasına yardım vasitələrini yola salıblar. Qabıllı kənd sakini, şəhid atası ***Mustafa Əliyev*** bu barədə deyir: "Qardaş Türkiyə Respublikasında zəlzələnin baş verdiyi ərazilərdə yaranmış dağıntılar, itkiləri izlədikcə ürəyimiz parçalanır. Orada dağıntılar altında qalan insanlara, ümumiyyətlə, zəlzələdən əziyyət çəkənlərə – qardaşlarımıza bu dar gündə əl tutmaq, kömək etmək borcumuzdur".

Qarabağlar kənd sakini ***Malik Məmmədov***un fikirləri: "Qardaş Türkiyədə baş vermiş zəlzələ ilə əlaqədar orada köməyə ehtiyacı olan insanlara yardım etməklə az da olsa, təsəlli tapırıq".

Zəlzələdə zərərçəkənlərə kömək məqsədilə Şahbuz rayonunun sakinləri də yardım kampaniyasına qoşulub. Rayonun Külüs kənd sakini ***Sabir Məmmədov*** deyir ki, yardımlar kənd mərasim evində toplanılır və yardım etmək istəyənlərin ardı-arası kəsilmir. Qısa müddət ərzində təbii fəlakətdə zərərçəkənlərə lazım olan vasitələr gətirməyə davam edirlər. İki yük maşını artıq yola salınıb. 44 günlük Vətən müharibəsində Türkiyə bizimlə idi, biz də indi hər zaman olduğu kimi Türkiyənin yanındayıq. Acıları acımızdır! Uca Allah bu sınaqdan da bizləri alnıaçıq, üzüağ çıxarsın!



Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin müəllimi ***Elməddin Quliyev*** bildirir ki, yüzlərlə rayon sakini qardaş Türkiyəyə kömək üçün müxtəlif əşyalar, papaq, ələcək, corab, uşaq paltarları, ayaqqabılar və sair qış geyimlərini yardım məntəqəsinə təqdim edir. Eyni zamanda pul ianələri də köçürmə şəklində davam etdirilir.

Yardım kampaniyasına qoşulanlardan Şahbuz şəhərində yaşayan ***Ayla*** və ***Nail*** bacı-qardaşı da diqqətimizi çəkdi. Onlar geyimlərlə yanaşı, özlərinin oyuncaqlarını da türkiyəli bacı-qardaşlarına göndərirdilər. Ayla onlara məktub da yazmışdı: "Bizim adımız Ayla və Nail, sizə öz geyimlərimizi göndəririk. Əgər bu məktubu oxumusunuzsa, bilin ki, sizi çox sevirik və sizin üçün hər gün Allaha dua edirik. Sizə göndərdiyimiz şəkərlərdən də şirin-şirin yeyin".

Qardaş respublika ilə sərhəddə yerləşən Sədərək rayonunun Sədərək kəndi ərazisində yerləşən Asnı məscidinə yardım göndərmək məqsədilə gələnlərin ardı-arası kəsilmir. Kənd sakini ***Nadir Məmmədov*** dedi ki, Azərbaycan Respublikasının qardaş dövlətlə sərhədində yerləşən Sədərək rayonu ən çətin günlərdə onların dəstəyini görüb. 1990-1993-cü illərdə, döyüşlərin ən qızğın vaxtında məhz türkiyəli jurnalistlərin bölgəyə gəlməsi ilə erməni vəhşiliyindən dünya xəbər tutdu. Həmin çətin vaxtlarda "Ümid" körpüsü vasitəsilə hər cür yardım göstərildi naxçıvanlılara. İndi də qardaşlığımızın sınağa çəkildiyi günləri yaşayırıq. Qardaş ölkənin ən çətin günündə onlara yardım etmək hər birimizin borcudur. Əziz qardaşlarımız bu soyuq, qarlı qışda dağıntıların altında qaldığı bir vaxtda biz burada sakit dayana bilmərik. Evimizin qapıları da hər zaman onların üzünə açıqdır.



Qaraağac kənd sakini ***Dilbər Rzayeva*** da nəvələri ilə yardım kampaniyasına qoşulub. O deyir: "Ən yaxın qonşumuz, qardaşımız olan Türkiyə Respublikası bizim ən çətin günlərimizdə yanımızda olub. Sədərəyin ən ağır günlərində bizə dəstək olublar. Bir neçə gündür, orada baş verən təbii fəlakətin nəticələri hər birimizin ürəyində dağa dönüb. Uca Yaradan hər birinə kömək olsun. Bu gün hərə dəstəyini bir cür ifadə edir. Kimi maddi yardım, kimisi əşya köməkliyi göstərir. Hər kəsin duası qardaşlarımızladır. Çətinlikdən bir olub çıxacağıq, İnşallah. Tarix bu iki xalqı çox sınağa çəkib, hamısından da üzüağ, alnıaçıq çıxmışıq. Bu dəfə də elə olacaq".

### *Naxçıvandan Türkiyəyə 12 TIR yola salındı*

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Asip Kaya "Şərq qapısı" qəzetinə açıqlamasında bildirib ki, Türkiyənin Naxçıvandakı Baş Konsulluğu zəlzələdən zərərçəkənlərə humanitar yardımla bağlı Naxçıvanda yaşayan sakinlərə müraciət etdikdən sonra insan axınının ardı-arası kəsilməyib. Artıq dünən Naxçıvanda yaşayan sakinlərin yardımları nəticəsində 12 TIR lazım olan ləvazimat yola salınıb. Yolasalmada Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini Elşad Əliyev, Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya və Əlahiddə Ümumqoşun Ordunun komandanı, general-polkovnik Kərəm Mustafayev də iştirak etdilər.

### *İanə köçürmələri komissiyasız edilir*

Qardaş ölkədə təbii fəlakətdən zərərçəkənlərə maddi yardım göstərmək istəyənlərin nəzərinə çatdırırıq ki, "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti rəhbərliyinin qərarına əsasən qardaş Türkiyə Respublikasında zəlzələdən zərərçəkənlərə yardım etmək məqsədilə "Naxçıvanbank"dan edilən bütün pul köçürmələri komissiyasız həyata keçirilir. Bankdan qəzetimizin əməkdaşlarına bildirilib ki, təyinatı üzrə həm fiziki, həm də hüquqi şəxslər "Naxçıvanbank"ın filiallarına yaxınlaşaraq Türkiyəyə maddi yardım köçürmələrini rahat, sürətli və komissiyasız şəkildə həyata keçirə bilərlər.

**Xəbərlər şöbəsi**

*Həyatımızın ayrılmaz hissəsinə çevrilən internetdən istifadə edənlərin sayı günü-gündən sürətlə artmaqdadır. İnsanlar internetdən informasiya əldə etmək, məktublaşmaq, şəkillərə və videoroliklərə baxmaq, ünsiyyət yaratmaq, oyun oynamaq və digər məqsədlər üçün istifadə edirlər.*

## İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtanatma və ya təhqiretmə cinayət məsuliyyətinə səbəb olur

Bu gün internet mühitində ən populyar layihələrdən biri də sosial şəbəkələrdir. Sosial şəbəkələr sosial qarşılıqlı əlaqələr, sosial obyektlər (adamlar və ya təşkilatlar) və kommunikasiyalar arasında sosial struktur düyünlərindən ibarət olan qrupdur.

Qeyd edək ki, hər bir istifadəçi internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə şəxsiyyətini eyniləşdirməyə imkan verən özünəməxsus həqiqi məlumatlardan, yəni öz adından, soyadından, ata adından və həmin şəxsə aid digər həqiqi məlumatlardan istifadə etməklə profil və ya hesablar yaratmalıdır. Lakin sosial şəbəkələrdəki mövcud norma və qaydalara görə, saxta profil və ya səhifələrin yaradılması yolverilməzdir və qanunsuzdur. Hər bir şəxs öz adı ilə qeydiyyatdan keçməli və özünə yalnız bir hesab açmalıdır. Şəxs sosial şəbəkədə şəxsi hesab yaradarkən irəli sürülmüş bütün şərtlərlə razılaşır və həmin şərtlərin pozulmasına görə üzərinə qoyulmuş məsuliyyəti qəbul edir.

Qeyd etmək lazımdır ki, bütün sosial media platformalarında saxta profil açmaq qadağan olunur. Əgər istifadəçi saxta ad və soyadlardan istifadə edərək saxta profil hesabı yaradırsa, həmin şəxs sosial şəbəkənin şərtlərini pozmuş olur.

Təcrübədə bir sıra hallarda saxta adlar, profil və ya hesablar yaradılaraq insanların təhqir edilməsi hallarına rast gəlirik. Bu zaman həmin saxta profil hesabı sahibləri düşünürlər ki, hesabları saxta olduğu üçün bu hərəkətlərinə görə heç bir məsuliyyət daşımırlar. Lakin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 148.1-ci maddəsinə əsasən bu hərəkət cinayət əməli sayılır və bu əmələ yol verən şəxsin cinayət məsuliyyəti daşımasına səbəb olur.

Cinayət hüquqi məsuliyyət yaradan təhqir dedikdə isə kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında şəxsiyyətin şərəf və ləyaqətinin nalayiq formada qəsdən alçaltma başa düşülür. Eynilə "Böhtan" cinayətində olduğu kimi 148-ci maddədə də "və ya kütləvi informasiya vasitəsində" sözləri, "kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında" sözləri ilə əvəz edilmiş və kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatlarında edilən təhqirin də cinayət hüquqi məsuliyyət yaratdığı əks edilmişdir.

O zaman sual oluna bilər: Əgər internet informasiya ehtiyatlarında, eləcə də sosial şəbəkələrdə böhtan və təhqir hüquqi məsuliyyətə səbəb olursa, o zaman Cinayət Məcəlləsinə yeni məzmunda 148.1-ci maddəsinin (İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtanatma və ya təhqiretmə – min manatdan iki min manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır) əlavə edilməsi hansı zərurətdən irəli gəlmişdir?

Bildiyimiz kimi, bəzi hallarda sosial şəbəkələrdə qeydiyyatdan keçmiş şəxslər öz real ad, soyadlarını, həmçinin digər anket məlumatlarını gizlədir – saxta istifadəçi adlarından, profil hesablarından istifadə etməklə bu cür sosial şəbəkələrdən istifadə edirlər. Təbii ki, öz-özlüyündə bu halın mövcudluğu şəxs üçün hər hansı bir hüquqi məsuliyyət yaratmır. Lakin saxta profil adlarından istifadə edən şəxslər bir sıra hallarda anonim olduqları üçün cəzasız qalacaqlarını güman edərək digər şəxsləri təhqir etməkdən və onlara böhtan atmaqdan çəkinmirlər. Odur ki, bu tip halların qarşısının alınması, dövlət tərəfindən insanların şərəf və ləyaqətinin müdafiəsinin, saxta profil hesablarından istifadə edərək insanların şərəf və ləyaqətini alçaldan, onlara böhtan atan şəxslərin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb olunmasının təmini üçün 29 noyabr 2016-cı il tarixdə yeni məzmunda 148.1-ci maddə əlavə edilmişdir. Bu maddə ilə internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtanatma və ya təhqiretmə də cinayət məsuliyyətinə səbəb olur. Maddənin "Qeyd" hissəsində "saxta istifadəçi adlar, profil və ya hesablar" anlayışının açıqlaması da verilmişdir. Belə ki, həmin maddəyə əsasən: "saxta istifadəçi adlar, profil və ya hesablar" dedikdə internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə istifadəçinin şəxsiyyətini eyniləşdirməyə imkan verməyən, yəni ad, soyad və ya ata adına dair yalan məlumat yerləşdirilmiş və ya belə məlumatlar gizlədilmiş, habelə digər şəxsə aid məlumatlardan onun razılığı olmadan istifadə edilməklə yaradılmış istifadəçi adlar, profil və ya hesablar başa düşülür".

"İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtanatma və ya təhqiretmə" cinayətinin "Təhqir" və "Böhtan" cinayətlərindən fərqləndirən önəmli bir özəlliyi də bu cinayət üzrə cinayət təqibinin ictimai-xüsusi ittiham qaydasında həyata keçirilməsidir. Bu isə Cinayət-Prosessual Məcəlləsinin 37.5-ci maddəsində qeyd edilən hallardan (törədilmiş cinayət dövlətin və ya cəmiyyətin mənafeyinə toxunduqda; cinayət hakimiyyət nümayəndəsi və ya dövlət orqanlarının digər vəzifəli şəxsləri tərəfindən, yaxud onlara qarşı törədildikdə; cinayət hamilə vəziyyətdə olan qadın, qoca və köməksiz vəziyyətdə olan şəxs barəsində törədildikdə; cinayət hədə-qorxu, məcburiyyət təsiri altında və ya onu törətmiş şəxsdən asılı vəziyyətdə olan digər şəxs barəsində törədildikdə; cinayət fəaliyyət qabiliyyəti olmayan və ya cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxs tərəfindən və ya ona qarşı törədildikdə) biri olduqda cinayət təqibinin prokurorun təşəbbüsü ilə zərərçəkmiş şəxsin şikayəti olmadan da başlaya bilməsi deməkdir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 37.2-ci maddəsinə əsasən "Böhtan" və "Təhqir" cinayətləri üzrə cinayət təqibi xüsusi ittiham qaydasında aparılır. Xüsusi ittiham qaydasında cinayət təqibi yalnız zərərçəkmiş şəxsin şikayəti əsasında həyata keçirilir və məhkəmə müşavirə otağına gedənədək zərərçəkmiş şəxs təqsirləndirilən şəxslə barışdıqda ona xitam verilir. Təhqir və böhtana məruz qalan şəxs xüsusi ittiham qaydasında məhkəməyə şikayət etməlidir. Ona görə ki, təhqir və böhtan cinayətlərinin mühakimə icraatı məhkəmələrin səlahiyyət dairəsinə aiddir. Hər bir şəxsin internetden istifadə etmək, sosial şəbəkələrdə hesab açmaq, profil açmaq hüququ vardır. Bu platformada insanlar onlayn formada düşüncə və məlumatları paylaşırlar. Yalnız hər hansı bir şəxsin saxta adla hesab açmaqla və profil yaratmaqla qanunun tələbinə zidd hərəkət etməsi qanunvericiliklə nəzərdə tutulmuş qaydada onun üçün arzuolunmaz nəticələrə səbəb olacaqdır. Göründüyü kimi, bu qanunun məqsədi insanların şərəf və ləyaqəti, həyat və sağlamlığını mühafizə altına almaq, eyni zamanda hüquqi cəmiyyətdə ictimai-siyasi sabitliyi təmin etməkdir.

Unutmayaq ki, "Fikir və söz azadlığından" sui-istifadə edərək insanların təhqir edilməsi, onlara böhtan atılması yolverilməzdir və məsuliyyətə səbəb olur.

**Səttar ƏSGƏROV**
***Naxçıvan Muxtar Respublikası prokurorunun mətbuat xidməti üzrə köməkçisi, ədliyyə müşaviri***

## Qədim mənbələrdə Oğuz yurdu – Naxçıvan

*Qazaxıstan Respublikasının beynəlxalq Impact Factor araşırmalar jurnalı olan "International Scientific-practical journal ENDLESS LIGHT in SCIENCE"nin 2023-cü ilin birinci nömrəsində AMEA Naxçıvan Bölməsinin əməkdaşı, Əlyazmalar Fondunun Əlyazmaların kataloqlaşdırılması, tədqiqi və nəşri şöbəsinin müdiri, 15 kitab, monoqrafiya, dərs və metodik vəsaitlərinin, 150-dən artıq elmi məqalənin müəllifi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Səbuhi İbrahimovun "Qədim mənbələrdə Oğuz yurdu Naxçıvan" adlı elmi məqaləsi çap edilmişdir.*




Məqalədə, əsasən, Səbuhi İbrahimov nəsilliklə elm aləminin parlaq nümayəndələri olan qədim Oğuz yurdu Naxçıvan ziyalılarının yaradıcılıq fəaliyyətlərinin bütün istiqamətlərində inkişaf edərək müəyyən nailiyyətlər əldə etdiklərini qeyd edir. Tədqiqatda XIII əsrdə Fəzlullah Rəşidəddin tərəfindən yazılmış "Came-ət-təvarix" kitabı mühüm əhəmiyyət kəsb edir. Bu kitabın Oğuz türklərinə aid bölməsində Azərbaycan toponimlərindən, Oğuzun yürüşlərindən bəhs olunur. Eyni zamanda qədim Oğuz yurdu olan Naxçıvan bölgəsi Azərbaycanın tərkib hissəsi kimi təqdim edilir.

Fəzlullah Rəşidəddin "Came ət-təvarix" kitabındakı "Oğuznamə"də oğuz türklərinin atası Oğuzun yürüşləri təsvir olunur. Müəllif deyilən əlyazma kitabında Naxçıvanı Arran və ya Şirvan vilayəti tərkibində verir.

Qədim Oğuz yurdu olan Naxçıvana dair bədii ədəbiyyatımızdakı qeydlər həmişə əsərlərin süjet və kompozisiyasına uyğun olaraq müəyyən kontekstdə verilmişdir. Məsələn, Heradotun "Tarix" kitabından bizə məlum olan "Astiyaq" və "Tomiris" əfsanələrində hadisələr eramızdan əvvəl Azərbaycan ərazisində cərəyan edir. Həmin əfsanələrdə konkret olaraq "Naxçıvan" adı çəkilməsə də, bölgədə baş verən tarixi hadisələr təsvir edilir.

Məqalədən də gələn elmi nəticə deməyə əsas verir ki, müdriklik və hikmət xəzinəsi olan "Oğuznamə"lər kitab mədəniyyətimizin ən qədim nümunələrindəndir. Eramızın VI əsrində "Oğuznamə"nin kitab halında olması haqqındakı tarixi məlumat onun daha əvvəlki dövrə aid olduğunu söyləməyə haqq verir. Belə bir tarixi məlumat vardır ki, XIII əsrdə Misirdə məmluk bəylərinin oxuduğu bir "Oğuznamə" kitabının kənarında VIII əsrin birinci yarısında yaşamış, əslən Azərbaycandan olan görkəmli sərkərdə Əbu Müslümün belə bir qeydi varmış ki, bu kitab mənə ulu babam Buxtu xandan qalıbdır. Başqa bir "Oğuznamə" isə IX əsrin ilk illərində fars dilindən ərəb dilinə tərcümə edilmişdir. S.Əlizadə öz tədqiqatlarında bildirir ki, "Oğuznamə" sübut edir ki, IX-XII əsrlərdə – Azərbaycanda ərəb və fars dillərinin zoraki yazılı dil hüququnu ələ keçirdiyi bir vaxtda, hətta çox-çox əvvəllər oğuz dili ədəbi-bədii fəaliyyətdə olmuş, zəngin bəşəri mündərəcəsi, ictimai-tarixi kəsəri, yüksək ədəbi-estetik səviyyəsi ilə seçilən ədəbiyyat yaratmışdır. XI yüzilliyin tanınmış şairi Mənuçöhr Damğaninin aşağıdakı mənalı beyti bir daha deyilənləri təsdiqləyir:

*Mənə o türkmənsayağı çox yaxşı,*
*Dediyin türk və oğuz şeirindən oxu*

Belə ki, məqalədə "Oğuznamə"lərdən biri olan və VII əsr anadilli ədəbiyyatımızın nadir nümunəsi sayılan, orta əsr türk xalqlarının "milli pasportu" adlandırılan "Kitabi-Dədə Qorqud" eposunda isə artıq konkret olaraq qədim Oğuz yurdu olan Naxçıvan bölgəsinin toponimləri verilir. Abidənin "Uşun qoca oğlu Səyrək boyu" adlanan onuncu boyunda belə qeydlərə rast gəlirik: "...sonra Şirokus kənarındakı Göycə dənizinədək sahəni çapıb-taladılar. Böyük qənimət əldə etdilər. Əyrəyin yolu Əlincə qalasına düşdü. Qara təkur orada bir qoruq düzəltdirmişdi. Quşlardan bu dairəyə qaz, toyuq, heyvanlardan keyik, dovşan doldurub, buranı oğuz igidləri üçün talə etmişdi".

Məqalədə, həmçinin 1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi haqqında 20 aprel 1997-ci il tarixli Fərmanına əsasən dastanın yubileyinin beynəlxalq miqyasda keçirilməsi qeyd olunur. Göstərilir ki, "Kitabi-Dədə Qorqud" dastanı Naxçıvan diyarı ilə, xüsusilə bağlıdır. Dastanda təsvir edilən bir sıra hadisələr bilavasitə Naxçıvan ərazisində baş verir. Bunu dastanda adıçəkilən coğrafi obyektlərin, əsasən, Naxçıvanda və onunla qonşu olan ərazilərdə olması da sübut edir. Məlumdur ki, oğuzların bir qolu Azərbaycanın cənubunda, o cümlədən Naxçıvan ərazisində məskunlaşmışdı. Qədim oğuz ellərinin, bir növ, mərkəzində yerləşən Naxçıvan diyarında "Kitabi-Dədə Qorqud" boyları və onların personajları ilə bağlı 50-dən çox toponim müəyyənləşdirilmişdir.

Elmi məqalənin sonunda isə belə bir nəticəyə gəlinir ki, qədim Oğuz yurdu olan Naxçıvan və onun haqqında geniş bilgilər verən əlyazma mətnləri dəyərli mənbələrə söykənir. Tarixi keçmişimizi özündə əks etdirən Naxçıvana dair əlyazma mətnləri müxtəlif dil və yazı xətt nümunələri ilə seçilsə də, əsas və dəyərli mənbə materialları kimi qəbul edilmişdir.

Araşdırmada qədim Oğuz yurdu olan Naxçıvan haqqında bilgilər, bölgənin zəngin tarixi-ictimai keçmişi, mədəniyyət ocaqları, ədəbiyyat xəzinəsi, elmi yeniliklərin genişlənməsi, ona göstərilən diqqət, elm adamlarının həyat və yaradıcılığı öz əksini tapmışdır. Məqalə Naxçıvanşünaslıq baxımından böyük elmi-tarixi əhəmiyyətə malikdir və gələcək tədqiqatlar üçün əsaslı mənbə kimi gənc tədqiqatçılara yeni elmi istiqamətlər açacaqdır.

**Əbülfəz QULİYEV**
***AMEA-nın müxbir üzvü, professor***


## Elan

"Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbi" publik hüquqi şəxsi təsərrüfat və dəftərxana ləvazimatlarının, yumşaq inventarların, nəqliyyat vasitələrinin alınması, ehtiyat hissələrinin alınması və təmiri üçün kotirovka sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender və Kotirovka Komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

• *Maraq məktubu*

• *Malsatanın satdığı dərman, sarğı materiallarının, təsərrüfat və dəftərxana ləvazimatlarının, yumşaq inventarların, nəqliyyat vasitələrinin, ehtiyat hissələrinin alınması və təmiri haqqında məlumat.*

Qeyd olunmuş sənədlər toplusunu 20 fevral 2023-cü il, saat $18^{00}$-a kimi "Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbi" publik hüquqi şəxsə təqdim etmək lazımdır.

***"Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbi" publik hüquqi şəxs***
***Əlaqə telefonu: (036) 545-53-31***
***051-226-08-44***

## *İtmişdir*

Nəcəfov Qənbər Tapdıq oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayon Nehrəm kənd sakini Qurbanov Hüseyn İsgəndər oğlunun adına olan JN-2146A inventar nömrəli, 10300058 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Sadıxov Asiman İbrahim oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır



ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Ceyhun Məmmədov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 107